# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/13** **23 sentyabr 2013-cü il**

## "Azərbaycan auditi - 20" kitabının nəşrə hazırlanmsı barədə

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən imzalanmış "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsinin 20 illiyi münasibətilə Auditorlar Palatasının 2013-2015-ci illər üzrə iş planında nəzərdə tutulmuş "Azərbaycan auditi - 20" kitabının nəşrə hazırlanmasını təmin etmək məqsədilə **qərara alıram**

1. "Azərbaycan auditi - 20" kitabının hazırlanması və nəşr etdirilməsi üçün Auditorlar Palatasında aşağıdakı tərkibdə İşçi qrupu yaradılsın:

**İşçi qupunun rəhbəri:**

| | |
|---|---|
| Qəşəm Bayramov | Auditorlar Palatası Aparatının rəhbəri |

**İşçi qupunun üzvləri:**

| | |
|---|---|
| Aydın Kərimov | Auditorlar Palatası sədrinin müşaviri |
| Nəcəf Talıbov | Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri |
| Rüstəm Ələkbərov | Auditorlar Palatası Aparatının informasiya texnologiyaları üzrə mürtəxəssisi |
| Mətanət Eyvazova | Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsi şöbəsinin yığım operatoru |
| Abbasəli Qurbanov | "RR - VAM Beynəlxalq Audit Konsaltinq" MMC-nin direktoru |
| Eldəniz İsgəndərov | Sərbəst auditor |

2. İşçi qrupuna (Q.Bayramov) tapşırılsın ki, 2 (iki) ay müddətində "Azərbaycan auditi - 20" kitabının strukturu, hazırlıq və çap mərhələləri barədə təkliflər hazırlanıb təqdim edilsin.

3. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (M.Abbasov, M.Hacıyev, S.Gülməmmədov, R.Cəfərli, V.Rəhimov) tapşırılsın ki, "Azərbaycan auditi - 20" kitabının nəşri ilə əlaqədar İşçi qrupu tərəfindən tələb olunan məlumatların vaxtında və keyfiyyətlə hazırlanıb təqdim olunmasını təmin etsinlər.

4. İşçi qrupuna (Q.Bayramov) "Azərbaycan auditi - 20" kitabının hazırlanması və çap olunması ilə əlaqədar zəruri hallarda kənar mütəxəssislərin işə cəlb edilməsi üçün müvafiq səlahiyyətlər verilsin.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**